# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyinin**
**____ nömrəli ____________2017-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

## MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

## T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın (proqramın) şifri və adı: 060311 – Aktyor sənəti (sahələr üzrə)**

**BAKI – 2017**

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **060311 –Aktyor sənəti (sahələr üzrə)** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.2.** Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**İTP–** ixtisas üzrə Tədris Proqramı
**ÜK –** ümummədəni kompetensiyalar
**PK–** peşə kompetensiyaları

## 2. 060311–Aktyor sənəti (sahələr üzrə) ixtisasının xarakteristikası

**2.1. 060311–Aktyor sənəti ixtisasının xarakteristikası**
İTP-nin mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060311 –Aktyor sənəti**<br>**İxtisaslaşmalar:**<br>-Dram teatrı və kinoaktyoru<br>-Musiqili teatr aktyoru | Magistr | 1,5 il | 90 |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

**3.1. Magistrin ixtisas xarakteristikası.**
Magistr dərin fundamental biliyə və peşə hazırlığı tələb edən pedaqoji fəaliyyətə hazır olmalıdır.

**3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**3.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara **(ÜK)** yiyələnməlidir:
- kollektivdə işləmək (**ÜK-1**);
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq (**ÜK-2**);
- beynəlxalq arenada işləmək ( **ÜK-3**);
- hüquqi biliklər və etik normalara malik olmaq (**ÜK-4**);
- yeni ideyalar irəli sürmək (**ÜK-5**);
- müstəqil işləmək ( **ÜK-6**);
- yaradıcılıq,pedaqoji işlərin təşkilində,kollektivin idarə olunmasında bacarıq və vərdişlərə malik olmaq (**ÜK-7**);
- peşə fəaliyyəti ilə əlaqədar işi təşkil etmək və planlaşdırmaq ( **ÜK-8**)

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına (PK) yiyələnməlidir:

***Yaradıcılıq sahəsi üzrə:***
- aktyor sənətinin tədrisində və yaradıcılıq prosesində modelləşdirmə üsullarından istifadəyə (**PK-1**);
- yaradıcılıq prosesində nəzəri biliklərdən istifadəyə (**PK-2**);
- yaradıcılıq işlərinin planlaşdırılması və aparılmasına (**PK-3**);
- yaradıcılıq işlərinin təqdimatını hazırlamağa (**PK-4**);
- ixtisasın ümumi mənzərəsini təsvir etmək bacarığına (**PK-5**);

***İstehsalat-pedaqoji sahəsi üzrə:***
- tədris prosesində ixtisas üzrə yaradıcılıq bacarıqlarını aşılamağa və təhlil aparmağa (**PK-6**);
- fənnin tədrisində kompüter texnologiyasından istifadəyə (**PK-7**);
- fənlə bağlı termin və ifadələrin tətbiqi bacarığına (**PK-8**);

- müasir təlim texnologiyalarını tətbiq etmək bacarığına (**PK-9**);

***Təşkilati-inzibatçılıq sahəsi üzrə :***
- ümumi və fərdi iş formalarını təşkil etməyə (**PK-10**);
- fənnin tədrisi ilə bağlı bilikləri təqdim etmək və iş şəraitinə adaptasiya etməyə (**PK-11**);
- qrupların yaradıcılıq işlərinə rəhbərlik etməyə (**PK-12**);
- ixtisas biliklərini düzgün və yığcam ifadə etməyə (**PK-13**);

***Pedaqoji sahə üzrə:***
- ümumtəhsil,texniki-peşə, orta ixtisas təhsili müəssisələrində və alı təhsilin bakalavriat səviyyəsində ixtisas fənlərinin tədrisini aparmağa (**PK-14**);
- elektron kitabxanalardan, refarativ jurnallardan,internetdən məlumatlar əldə etməyə (**PK-15**)

## 4. Təhsilin məzmununa və səviyyəsinə qoyulanminimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası.

**4.1.1. 060311** –**Aktyor sənəti** ixtisası üzrə magistrların peşə fəaliyyətinin əsas istiqamətləri:
- yaradıcılıq –ifa;
- pedaqoji;
- təşkilatı-inzibatçılıq və s.

**4.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər.**
**Yaradıcılıq –ifa;**
- İxtisas üzrə təşkilati və tətbiqi məsələlərin həllində modelləşdirmə üsullarından istifadə etmək; pedaqogikanın, xüsusi qabiliyyət tələb edən **060311** –**Aktyor sənəti** ixtasasının əməli-təcrübi əsaslarından, incəsənət tarixi və nəzəriyyəsinin tədrisi metodikasının nailiyyətlərindən, qabaqcıl təcrübədən istifadə etməklə fənnin tədrisi metodikası sahəsində aparılan işləri təhlil etmək və nəticələri ümumiləşdirmək;
- konfranslar,seminarlar,simpoziumlar hazırlamaq və keçirmək.

***Pedaqoji sahə üzrə:***
- mühazirə oxumaq;
- seminar,məşğələ dərslərini aparmaq;
- pedaqoji təcrübəyə rəhbərlik etmək;
- müasir proqram təminatından istifadə etmək;
- ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etmək;
- ixtisasın tədrisinə dair informasiyaların toplanması və emalında İKT-dən istifadə etmək və.s

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***
- yaradıcı və tədris kollektivlərinin işini təşkil etmək;
- qəbul olunmuş qərarların nəticəsini kəmiyyət və keyfiyyətcə qiymətləndirmək və.s

**4.2.** İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından ) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənnin kodu və adı | Fənn üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları |
|---|---|---|---|---|---|
| | **Təhsil hissəsi** | | | | |
| **MHF-B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr<br>**bilməlidir:**<br>- ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahid həcmində leksik minimumu, | 10 | **MHF–B01**<br>*Xarici dil*<br><br>**MHF–B02**<br>*Ali məktəb pedaqogikası* | 4<br><br><br>2 | **ÜK-1**<br>**ÜK-2**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-6** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ixtisas üslubunun əsas xüsusiyyətlərini, dili öyrənilən ölkələrin mədəniyyəti və adət-ənənələrini, ixtisasa aid ədəbiyyatı xarici dildə oxuyub başa düşməyi;<br>-Azərbaycanda ali təhsil sistemini, ali məktəbin, tələbə və müəllimlərin vəzifələrini, ali təhsil müəssisəsində təlim prosesi və təhsilin məzmununu, müasir tədris və təlim üsullarını,tədris müəssisəsinə rəhbərlik və idarəetmə məsələlərini,<br>- psixologiyanın əsaslarını, yaradıcılıq psixologiyasının xüsusiyyətləri və metodlarını, ünsiyyət və tələbə psixologiyasını və s.<br>**bacarmalıdır:**<br>- **Aktyor sənəti** ixtisasına dair mətnləri oxumağı, ixtisasa dair internetdən götürülmüş mətnləri tərcümə etməyi, annotasiya, tezis, tərcümeyi-hal və s. yazmağı;<br>- ixtisas və ixtisasa yaxın əməli və nəzəri fənləri müasir təlim üsullarından istifadə etməklə tədris etməyi;<br>-hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmanı, tələbələri yaradıcılığa cəlb etməyi və s.<br>**yiyələnməlidir:**<br>- xarici dildə lüğətin köməyilə oxumaq və yazmaq vərdişlərinə;<br>- ali təhsil müəssisəsində tədris və tədqiqat işləri aparmağa və s. | | **MHF–B03**<br>*Yaradıcılıq psixologiyası*<br><br>**MHF–B04**<br>*Seçmə fənlər** | **2**<br><br><br><br>**2** | **ÜK-7**<br>**ÜK-8** |
| **MİF-B00** | **İxtisas (ixtisaslaşma) fənləri bölümü**<br>**bilməlidir:**<br>-müasir Azərbaycan və dünya teatrının problemlərini;<br>-ixtisas üzrə teatr tarixi və nəzəriyyəsinin əsaslarını;<br>- aktyorluq təcrübəsini;<br>-aktyor sənətinin ümumi əsaslarını<br>- tamaşa və onun elementlərini müstəqil və yaradıcı kollektivlə birgə yüksək peşəkar səviyyədə həyata keçirməyi;<br>- aktyor sənətinin nəzəri, tənqidi və tarixi müddəalarının təhlili metodlarını;<br>- teatr sənətinin estetik prinsiplərini;<br>- teatr idarəçiliyi, iqtisadiyyatı və marketinq problemlərini;<br>- teatr tarixinin həlledici məqamlarını və ən yaxşı tamaşalarını analitik təhlilə cəlb etməyi;<br>-müasir teatrın inkişaf istiqamətlərini proqnozlaşdırmağı;<br>- müxtəlif janrlı bədii ədəbiyyat nümunələrinin (dram, nəsr, poeziya) səhnə təcəssümünün nəzəri və təcrübi aktyor təhlilinə cəlb etməyi;<br>- müasir informasiya,reklam və teatr bazarının öyrənilməsini.<br><br>**bacarmalıdır:**<br>-müstəqil və ya qrup daxilində yaradıcılıq axtarışlarını;<br>- qazanılmış bilik, bacarıq və səriştələri | **50** | **MİF – B01**<br>*Aktyor sənətinin müasir inkişaf istiqamətləri*<br><br>**MİF – B02**<br>*Aktyor sənəti*<br><br>**MİF – B03**<br>*Rol üzərində iş*<br><br>**MİF – B04**<br>*Ali məktəb tərəfindən müəyyən edilən fənlər*<br><br>**MİF – B05**<br>*Seçmə fənn (fənlər)** | **4**<br><br><br><br><br>**8**<br><br><br>**8**<br><br><br>**26**<br><br><br><br><br><br>**4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | müstəqil və ya qrup daxilində nümayiş etdirməyi;<br>- yaradıcı kollektivdə vahid müəllif ideyası çərçivəsində işləməyi;<br>**-**bədii mətni təhlil etməyi**;**<br>- bədii obrazı müəllif niyyətinə uyğun məharətlə nümayiş etdirməyi.<br><br>**yiyələnməlidir:**<br>- yaradıcılıq – ifa işi aparmağa;<br>- tamaşanın quruluşunda iştirak edənlərin (rejissor, rəssam, musiqi tərtibatçısı, baletmeyster) niyyətindən asılı olaraq müvafiq üsullara;<br>- ixtisas üzrə ədəbiyyatdan istiqamət-lənməyə;<br>- müasir incəsənəti tarixi kontekstdə, konkret dövrün fəlsəfi, estetik ideyaları məcmusunda qavramağa; | | | | |
| **MEY-B00** | **Yaradıcılıq - ifa işləri**<br>Magistr yaradıcılıq - ifa işinin təşkili, aparılması və yekunlaşdırılması ilə bağlı **bi-lməlidir:**<br>-yaradıcılıq işi mövzusu seçməyi;<br>-yaradıcılıq – ifa işlərini planlaşdırmağı;<br>- yaradıcılıq – ifa işini yerinə yetirməyi;<br>-yaradıcılıq – ifa işinin nəticələrini təhlil etməyi, onu digər müəlliflərin nəticələri ilə müqayisə etməyi;<br>-alınmış nəticələrin praktik əhəmiyyətini və tətbiqi imkanlarını müəyyənləşdirməyi;<br>-yaradıcılıq–ifa işinin gələcəkdə davam etdirilməsi imkanlarını müəy-yənləşdirməyi;<br>- yerinə yetirilmiş yaradıcılıq – ifa işinin müdafiəsini (təqdimatını) təşkil etməyi;<br>- diplomqabağı təcrübəvə pedaqoji təcrübələrdə iştirak etməyi, onların nəticələrini ümumiləşdirməyi və s. | **30** | Diplomqabağı təcrübə<br><br>Pedaqoji təcrübə<br><br>Magistr yaradıcılıq işinin hazırlanması və müdafiəsi(təqdi matı) | **6**<br><br>**6**<br><br>**18** | **ÜK-1**<br>**ÜK-7**<br>**ÜK-8**<br>**PK-2**<br>**PK-3**<br>**PK-5**<br>**PK-6**<br>**PK-9** |
| | **Kreditlərin ümumi sayı** | **90** | | **90** | |

**Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**4.3.** İxtisası üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 72
o cümlədən:
- nəzəri təlim – 30həftə
- təcrübələr (elmi-tədqiqat və elmi-pedaqoji) – 8 həftə
- imtahan sessiyaları – 10 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi – 12 həftə
- tətillər – 12 həftə

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060311 –Aktyor sənəti** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi, yaradıcılıq –ifa işlərinin yerinə yetirilməsi üçün - müvafiq İKT ilə təchiz olunmuş nəzəri dərs otaqları, ixtisas dərsləri üçün xüsusi avadanlıqla (işıqlandırma, audio-videotexnika, musiqi alətləri,dekorasiya elementləri, səhnə geyimi, rekvizit və s.) lisenziyalı proqramları olan kompüter sinifləri ilə təchiz olunmalıdır; ixtisas

dərslərinin, məşqlərin keçirilməsi üçün lazımı avadanlıqları, rekvizit və dekorasiyaları olan Tədris teatrı və səhnəli otaqları olan maddi-texniki bazası olmalıdır; təhsil alanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalar, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı, elmi dərəcəsi və ya fəxri adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

**5.3.** Magistrlik yaradıcılıq-ifa işinə rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı, elmi dərəcəsi və ya fəxri adı olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın təlimi və pedaqoji hazırlığı məşq, mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

**6.2.** Magistr hazırlığı üzrə tədris prosesində performans, şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, və digər metodlardan istifadə edilə bilər.

**6.3.** **060311–Aktyor sənəti** ixtisası üzrə magistr hazırlığında yaradıcılıq-ifa və diplomqabağı təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və studiyalarında , tədris teatrında keçirilə bilər.

## 7. Yekun Dövlət Attestasiyasına qoyulan tələblər vəqiymətləndirmə

**7.1.** Yekun dövlət attestasiyası magistr yaradıcılıq işinin müdafiəsindən ibarətdir. Yaradıcılıq işinin məzmununa,strukturuna qoyulan tələblər və onun müdafiəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq olunmuş "Magistrlik dissertasiyalarının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə" ilə müəyyənləşdirilir.

**7.2.** İxtisaslaşdırılmış Şuraların sədrləri Təhsil Nazirliyi, tərkibi ali təhsil müəssisəsi tərəfindən təsdiq olunur.

**7.3.** Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.

**7.4.** İmtahanlar və Yekun Dövlət Attestasiyası zamanı tələbələrin biliyinin qiymətləndirilməsi çoxballı sistemlə həyata keçirilir

**Razılaşdırılmışdır**

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Aparat rəhbərinin müavini, Elm,
ali və orta ixtisas təhsil
şöbəsinin müdiri

______________________Yaqub Piriyev

"_____" ______________ 2017-ci il

Mədəniyyət və İncəsənət ixtisasları
qrupu üzrə Dövlət Təhsil Proqramlarını
hazırlayan işçi qrupun sədri

________________Validə Məmmədova

"_____" ______________ 2017-ci il

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Elmi Metodiki-Şurasının
"İncəsənət" bölməsinin sədri

___________________ Zemfira Qafarova

"_____" ______________ 2017-ci il